*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 48-52* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.48*

# Türk ədəbiyyatında sərvəti fünun və tənzimat dövründə tənqid

**Xuraman Qədimova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
"Azərbaycan neft təsərrüfatı" jurnalı
xuramanqedimova@mail.ru

**Annotasiya:** Məqalədə ilk dəfə olaraq XIX əsrdə türk ədəbiyyatına yeni daxil olan ədəbi janrlar və yeni ədəbiyyatın qaydaları öyrənilmişdir. Qeyd olunmuşdur ki, yeni janrlar müzakirə olunarkən tənqid ədəbi janr kimi ciddi qəbul olunmurdu. Tənqid sahəsində görülən işlər yarımçıq və fərdi olaraq qalmışdır. Lakin buna baxmayaraq bu dövrdə tənqid türk ədəbiyyatında ədəbi janr kimi öz yerini tuta bildi. Tənqid ədəbi dairələrdə "yeni ədəbi qol" – cərəyan kimi müzakirə olunurdu. Çağdaş ədəbiyyatda isə tənqid də zaman, məkan, təkamül, təqlid, estetika və ədəbi əsər kimi çoxölçülü şəkildə araşdırılır və müzakirə edilirdi. Recaizadə M.Əkrəm və Muallim Naci, Əhmət Mithad Əfəndi bu dövrün məşhur tənqidçiləridir.
Sərvəti Fünun türk ədəbiyyatının qərbləşməsi dövründə müxtəlif ədəbi janrların sınanaraq türk ədəbiyyatına daxil edildiyi dövrdür. Tənzimat dövrü ilə başlayan Qərb ədəbiyyatı anlayışı Sərvəti Fünun dövründə texniki cəhətdən uğurlu əsərlər meydana gətirdi. Ədəbi tənqid də bu dövrdə daha da inkişaf etdi.
**Açar sözlər:** Tənzimat ədəbiyyatı, ədəbi tənqid, qərbləşmə, XIX əsr Osmanlı İmperiyayası, ədəbi cərəyanlar

**Məqalə tarixçəsi:** göndərilib – 14.07.2025; qəbul edilib – 17.09.2025

# Criticism in turkish literature during the period of serveti funun and tenzimat

**Khuraman Gadimova**

**Abstract:** The article examines literary genres and patterns of new literature that entered Turkish literature in the 19-th century for the first time. It is noted that criticism as a literary genre was not taken seriously when discussing new genres. The work in the field of criticism remained incomplete and fragmented. However, despite this, criticism was able to take its place as a literary genre in Turkish literature of this period. In literary circles, criticism was discussed as a "new literary trend" – a movement. In modern literature, criticism was also considered and discussed in a multidimensional key, including aspects such as time, space, evolution, imitation, aesthetics and literary work. Rekayzade M. Akram and Muallim Naci, Ahmet Mithad Efendi are famous critics of this period. Servati Funun is a period of Westernization of Turkish literature, when various literary genres were tried and included in Turkish literature. The understanding of Western literature that began in the Tanzimat period led to the emergence of technically successful works in the Servata Funun era. Literary criticism also developed further during this period.
**Key words:** Tanzimat literature, literary criticism, Westernization, 19$^{th}$ century Ottoman Empire, literary movements.

**Article history:** received – 14.07.2025; accepted – 17.09.2025

## Giriş / *Introduction*

Tənqid insanların fərqliliyindən, fərqli düşüncə və mühakimələrə malik olması səbəbindən yaranır. Akademik dəyərləndirmə tənqidin sivilizasiyaların yaranması və inkişafına müsbət təsir edən güclü yanaşma, özündə azadlığı və cəsarəti birləşdirən bir janr olub, yaranma tarixinin qədim dövrlərə gedib çıxdığını isbatlayır.

Türk ədəbiyyatında yeni yaranmış tənqidi hansı kəlmə ilə ifadə etmək məsələsində ədəbi mübahisələr və müzakirələr xeyli vaxt başlıca mövzu olmuşdur. Qərb ədəbiyyatının tənqid janrına uyğun kəlmə axtarışı mübahisələri dərinləşdirmiş, ədəbiyyat cameəsində uzun sürən gərginlik yaratmışdır. İlk dövrdə "mülahizə" və "hökm" sözlərindən istifadə edildiyi halda, sonradan ən çox işlənən söz "eleştiri – tənqid" olmuşdur. "Tənqid" sözü lüğətlərdə ədəbiyyat və ya sənət əsərini bütün yönlərindən dəyərləndirərək onun başa düşülməsini təmin etmək üçün yazılmış yazı növü kimi müəyyən edilir.

XIX əsrdən əvvəl tənqidçilər vardı, amma tənqid bir ədəbi janr olaraq mövcud deyildi. İslam dünyasında şərhetmə sənəti kimi inkişaf etsə də, müasir ədəbiyyatı addım-addım izləyən tənqid janrına çevrilməmişdi.

Türkiyə gündəmində Divan ədəbiyyatındakı qiymətləndirmə anlayışının mübahisə mövzusuna çevrilməsi ilə Qərb ədəbi janrı olan tənqid janrı diqqət mərkəzinə gəldi. Bu janr XIX əsrdə bədii mətnlərə daxil edilməyə başladı. Belə ki, 1860-cı ildən sonra Qərb üslubunda ilk ədəbi nümunələr üzə çıxmağa başlayanda bəzi məqalə və kitabların ön sözlərində tənqidə də yer verilirdi. Türk modernləşməsi ilə dəyişən mədəni həyat ədəbiyyata birbaşa təsir edərək Qərb ədəbi janrlarının da türk ədəbiyyatına nüfuz etməsinə səbəb oldu.

## Əsas hissə / *Main part*

### Sərvəti Fünun dövründə tənqid

Türk ədəbiyyatında Qərb ədəbi janrlarının uğurlu nümunələrinin yaradıldığı Sərvəti Fünun dövründə ədəbiyyatla bağlı müzakirələr aparılıb, tənqid janrı ilə bağlı mühüm araşdırmalara imza atılıb, ədəbi janrların necə olmasından bəhs edən məqalələr işıq üzü görüb.

Qərbləşmənin şiddətli müdafiəçilərindən və Sərvəti Fünun ədəbiyyatının ən mühüm imzalarından biri olan Tevfik Fikrət şeirdə müasir üsullardan ilk istifadə edənlərdən biri olmuş və şeirlə bağlı "Gözəllik" adlı məqaləsində fikirlərini açıqlamışdır. Bu yazıda vurğulanır ki, gözəllik faydalı və real olmalıdır. "Muhasebe-i Edebiyə" adı ilə başlatdığı ədəbi söhbətlərdə sənət və ədəbiyyatla bağlı fikirlərini açıqlayan yazıçı türk tənqidinə də töhfəsini vermişdir. O, yazılarına "Müqəddimə" ilə başlamış və yazılarının məqsədini açıqlamış, yeni ədəbi əsərlərin təqdim olunacağını, onların oxşar əsərlərlə müqayisə ediləcəyini bildirmişdir. Fikrətin sözlərinə görə, onun yazıları Avropadakı ədəbi resenziyalara bənzəyirdi [14].

Dövrün qabaqcıl sənətkarlarından Cənap Şəhabətdin Qərb ədəbi cərəyanlarının türk ədəbiyyatına girişi, ədəbi janrların formalaşması və inkişafı üzərində çalışmışdır.

"*Tənqidçi deyilən sənətkar ədəbi əsərlərin dərin təsirini oxucularına çatdırmağa çalışır. ... Hər ədəbi əsəri mütaliə edən kəs o əsərin kamillik və ülvilik dərəcəsini qiymətləndirib müəyyən edə bilərmi? Burada tənqidçi bu sənətin ideyalarının bələdçisidir. İncələmək, bir növ, ifadə və izahatdır, uzaqgörənlik və işıqlandırmaqdır; tənqidçi bütün mənəvi gücünü, dünyagörüşünü, hiss və təxəyyül incəliklərini ədəbi ruhların gözəllik sirlərini kəşf etməyə sərf edir*" [3, s.99]. O, tənqidi əsərin dəyərini müəyyən edəcək yeganə meyar kimi görür, zövqü şəxsi, gözəlliyi isə nisbi olaraq qiymətləndirirdi. Bu səbəbdən eyni iş üçün fərqli qiymətləndirmələr etməyin mümkünlüyü qənaətində idi.

### Tənzimat ədəbiyyatında tənqid

Türk ədəbiyyatı türklərin yaşadığı siyasi və dini dəyişikliklərə görə mərhələlərə bölünür. İslamın qəbulu və qərbləşmə türk ədəbiyyatının təsnifatında ən mühüm dönüş nöqtələridir. Qərb ədəbi normalarının əsas götürüldüyü və Qərb ədəbi janrlarının türk ədəbiyyatına daxil olduğu dövr qərbləşmə prosesində meydana gələn Tən-

zimat ədəbiyyatı idi. Qərb ədəbi tənqidinin prinsipləri əsasında inkişaf edən tənqid janrı XIX əsrdə formalaşmağa başladı.

Türk ədəbiyyatı yaşadığı coğrafiyanın ictimai-siyasi vəziyyətinin təsiri ilə dəyişmiş, XIX əsrdə Tənzimat ədəbiyyatı dövrünə qədəm qoymuşdur. Ədəbiyyatın siyasi iradədən asılı olduğu türk cəmiyyətində bu söz sənəti sosial-siyasi hadisələrin fonunda təşəkkül tapıb, çoxəsrlik ədəbi fikir tarixinin tərkib hissəsinə çevrilmişdir. XIX əsrdə Osmanlı imperatorluğu yönünü tamamilə Qərbə çevirdiyi üçün ədəbiyyatın da istiqamətinin Qərbə çevrilməsi qaçınılmaz idi.

Osmanlı imperatorluğunun Avropanı nümunə götürən qərbləşmə fəaliyyəti XIX əsrdə Tənzimat ədəbiyyatı ilə geniş vüsət aldı və mədəniyyət sahəsində köklü dəyişikliklər həyata keçirildi. Bu sahədəki yeniliklər müxtəlif ədəbi janrların türk ədəbiyyatına daxil olmasına şərait yaradılması idi. Tənqid bir janr kimi türk ədəbiyyatına məhz bu dövrdə daxil olmuşdur. Qeyd edək ki, 1860-cı illərdən sonra Qərb üslubunda ilk ədəbi nümunələr üzə çıxmağa başlayanda bəzi məqalə və kitabların ön sözlərində tənqidə də yer verilirdi.

Tənzimat fərmanı Türkiyədə qərbləşmənin təməl daşlarından biridir. Qərb ədəbiyyatının bir çox janrını Osmanlı ədəbiyyatına gətirən Şinasi, Fərmanın müəllifi Büyük Rəşit Paşanın tələbəsi olmuş və onu özünün idealı seçmışdır. Qərbləşmədə mühüm sənəd olan Fərmanı hazırlayan Rəşit Paşanın fikirləri Şinasi və Namik Kamal vasitəsilə türk ziyalılarına və ədəbiyyatına çatdırılmışdır.

Rəşit Paşanı yazılarında "mədəniyyət və dinin elçisi" kimi tərifləyən Şinasi həm də yeni türk ziyalısının portretini çəkirdi. Onun düşüncələrinə görə yeni tip intellektual maddi gücə qarşıdır, eyni zamanda, maarifləndirici və tənqidçi rolunu oynayır. Osmanlıda qüdrətini Allahdan alan ziyalılar Tənzimat dövründə gücünü ağıldan, vicdandan və hürriyyətdən alacaqlar. Tənzimat ziyalıları müasir dövlət anlayışını və vətəndaşların hüquqlarını izah etmək üçün məqalələr yazır, toplumu maarifləndirmə missiyasını yerinə yetirir, xalqla dövlət arasında münasibətlərin mahiyyətinin dəyişdiyini izah edirdilər.

I və II dövr Tənzimat tarixinin başlanğıcında Şinasi, Namik Kamal, Ziya Paşa, daha sonra Recaizadə Mahmut Əkrəm, Muallim Naci və Bəşir Fuad, Ahməd Mithat Əfəndi ilk tənqidi yazıları ilə ədəbiyyata öz töfhələrini vermişdilər.

Bu dövrdə tənqiddə iki fərqli yol izlənirdi:

– Türk ədəbiyyatında yenilik və dəyişmə prosesində divan ədəbiyyatı tamamilə rədd edildi və ya tənqid edilirdi.

– Tənzimat dövrü ədəbiyyatçıları Qərb ədəbiyyatını nümunə götürərək yeni bir ədəbiyyat yaratmağa çalışırdılar.

I dövr Tənzimat ədəbiyyatı ictimai fayda axtardığından bu, tənqidə də sirayət etmişdi. Şinasinin "Tərcüman-ı Əhval" qəzetində yazdığı məqalə ilə başlayan tənqid anlayışı, "ictimai fayda" anlayışı ilə köhnə zehniyyəti və ədəbiyyatı da əhatə edirdi. Osmanlı ziyalılarını tənqid atəşinə tutan Şinasi yaşlıları xalqı düşünməməkdə, səhlənkar davranmaqda günahlandırırdı. Şinasi tam mənada tənqidçi olmasa da, "Ruzname-i Ceride"nin yazarlarından Səid Paşa ilə "Mes'ele-i Mebhûsetün Anha" mövzusunda etdiyi müzakirəyə görə türk dili və ədəbiyyatı ilə bağlı irəli sürdüyü bəzi fikirlər özündən sonra gələnləri müəyyən mənada yönləndirdi. Şinasinin fikrincə, türkcə adlı bir dil var və bu dilin "başqa dillərdən götürdüyü sözləri hərfi və mənavi olaraq öz ləhcəsinin tələblərinə uyğun dəyişdirib uyğunlaşdırması" tamamilə normaldır.

Tənzimat ədəbiyyatının nümayəndəsi olmuş Şinasi Qərb mətbuatı prinsipləri ilə fəaliyyət göstərən ilk qəzet "Tərcüman-ı Əhval"da dil və ədəbiyyat müzakirəsini başlatdı. Şinasinin mülahizələrindən çox yüksəkdə dayanan ədəbi mübahisə iki rəqib qəzet olan "Ruznâme-i Ceride-i Havadis" və "Təsvir-i Əfkar" arasında baş tutdu. Şinasi klassik ədəbiyyatdakı təzkirəçilikdən fərqli tənqid janrını Qərb üsulunda Türkiyə ədəbiyyat tarixinə gətirməyi və həyata keçirmək istədiyi yenilikləri "Fatin Təzkirəsi"nin (Fatin Əfəndinin yazdığı təzkirədir. Şinasi bu təzkirəni yenidən yazıb düzəltməyə çalışmış, amma tamamlaya bilməmişdir) yeni nəşrində təqdim etməyi düşünürdü.

Ziya Paşa da Tənzimat dövrünün məşhur tənqidçilərindəndir. "Türk şeiri necə olmalıdır?" sualına cavab axtararaq, eyni zamanda, Divan ədəbiyyatının da quruluşu və sistemini incələyərək sərt şəkildə tənqid etmişdir. Ziya Paşaya görə, hər bir xalqın şeirində həmin xalqın milli dilinin xüsusiyyətlərindən asılı olaraq özünəməxsus qafiyə və sxem olmalıdır. O, Divan poeziyasının bu baxımdan Osmanlıya yad oldu-

ğunu söyləmişdir. Danışıq dilinin ədəbiyyat dili olması ilə bağlı ilk ciddi tənqidlərin olduğu, xalq poeziyasının ölçü və üsullarının mənimsənildiyi dövrdə bu üslubun təşəbbüskarı Ziya Paşa hesab edilir.

**Orta Nəsildə tənqid**

Tənzimat dövrü ilə Sərvəti Fünun arasındakı bu dövrdə obyektiv tənqidlə yanaşı, subyektiv tənqid nümunələri də yaranırdı. Tənqidi fikirlər ara-sıra emosional reaksiyalarla müşahidə olunsa da, tənqid meyarlarına əsaslanan qiymətləndirmələr də çoxluq təşkil edirdi. Mənəmənlizadə Tahir Divan ədəbiyyatında "kritika" kəlməsinə qarşılıq "muahhezeler" ifadəsinin işləndiyini, lakin təcrübədə avropalıların başa düşdüyü mənada tənqidin olmadığını yazırdı. Qeyd olunurdu ki, tənqid əsəri dərindən araşdırmağı və qiymətləndirməyi bilməyənləri istiqamətləndirmək, teleskop olmaq funksiyasına malikdir [1, s.73].

Mehmed Zivərə görə, "*tənqidçi çox diqqətli və düşüncəli olmalıdır. O, həmişə mükəmməl və istedadla davranmalıdır. Tənqidçi, ilk növbədə, obyektiv münasibət sərgiləməli, şəxsiyyətçilikdən, sentimentallıqdan uzaq olmalı, həm də tədqiq etdiyi hər bir əsərə ədalətli gözlə baxmalıdır*" [1, s.74]. "*Bizdə isə tənqid deyəndə mənasını, məqsədini müəyyən etmədən söymək, təhqir etmək kimi başa düşülür. İş o yerə çatıb ki, bu günə kimi mətbuat həyatımızda rast gələnən ədəbi tənqidlərin heç biri "ədəbi" cavab tapmayıb. Çünki tənqid kimi yazılanların çoxu "ədəb, namus və insanlığa hörmət edilmədən" yazılıb. Uzun müddətdir ki, mətbuatımızda hər kəs "azadlıq və bərabərlik" şərtlərinə görə öz fikrini istədiyi kimi ifadə edə bilir. Təəssüflər olsun ki, yazıçılarımız bu azadlıq və hüdudsuzluq mühitindən sui-istifadə edir, səxavətlə dolu ideyalarına qarşı çıxan həmsöhbət tapa bilməyəndə meydanı boş görüb tovuz quşu kimi özlərini tərif edirlər*" [8, s.54]. Göründüyü kimi, M.Zivərin yazılarından bu dövr ədəbiyyatında şəxsiyyətin ön planda olduğu və əsərin ədəbi meyarlara görə qiymətləndirilmədiyi, tənqidin təhqirə bərabər tutulduğu anlaşılır.

Dövrün ziyalılarından olan Əli Əkrəmin təsbitinə görə isə tənqid sənət və elmin ayrıca bir qolu olub, bütün elm və sənət sahələrinə istiqamət verən bir cərəyandır. O, "İctihad ustadı son tənqidçidir" deməklə müəllifləri ruhlandırır, oxucunun əsərə marağını artırır [1, s.74].

Məhmət Rəfət "İntiqat" məqaləsində tənqidin insan fitrətindəki şübhədən yarandığını bildirir. İnsanlar həqiqəti şübhə ilə tapırlar. Türk xalqı əcdadlarının fövqəladə zəhmətlə ərsəyə gətirdiyi ədəbi, elmi, bədii məhsullara "həqiqət çoxluğu", "haqqdan həzz almaq" kimi baxır. İndi elm və mədəniyyətdə açılan bu yeni yola "irşad məşəli" ilə keçmək üçün köhnə ədəbiyyatı, bədii məhsulları incələyir; Verilən fikri olduğu kimi qəbul etmir, şübhələnir və əsərlərə indi şübhə ilə baxıldığını deyir. "*İnsan ideyalarını təhlil edən və tədqiq neştərini oxucunun qəlbinə saplayacaq şair deyil, tənqidçidir*". "*Tənqidçi meyit yaran kimidir. O, cərrah bıçağını ədəbi əsərlərə uzadır, onları parçalayır və bu əsərin əks etdirdiyi fikri, məruz qaldığı rəyi, hiss etdiyi ağrını, iztirabı göstərməyə çalışır. Müəllifin təbiətini və xasiyyətini, yazıçını əsərin kompozisiyasına götürən yaşantıları, ətraf mühit və cəmiyyətin prinsiplərini nəzərdən keçirdir. Tənqidçi əsəri doğuran səbəbi və hadisələrin ardıcıllığını – səbəb və nəticələri izləyir. Beləliklə, "əsər öz nöqsanları və ya kamilliyi ilə ortaya qoyulur"* [1, s.73-74] deyərkən Məhmət Rəfət tənqidçilərin nələrə diqqət etməli olduğunu və tənqidin faydalarını ifadə etmişdir.

## Nəticə / *Conclusion*

Araşdırmalar göstərir ki, türk ədəbiyyatında Sərvəti Fünun və Tənzimat dövründə tənqidlə bağlı müzakirələr davam etmişdir. Obyektiv meyarlar və subyektiv tənqidin elmi tənqid olub-olmaması ilə bağlı fikir ayrılıqları olmuşdur. Qərbləşmə ilə birlikdə türk ədəbiyyatına akademik termin kimi daxil olan tənqidin əsas hədəfi ədəbi əsərlərin həm müsbət, həm də mənfi tərəflərini qiymətləndirərək mühakimə yürütmək prosesidir. Əsas məqsəd də əsərin ideyasını daha yaxşı anlamaq, qiymətləndirmək və təkmilləşdirmək olmuşdur. Tənqid edərkən konkret faktlara əsaslanmaq və obyektiv olmaq da vacib amil hesab olunurdu. Başqa sözlə desək, tənqidi fikirlər aydın mühakiməyə əsaslanmalı, obyektiv məlumatları özündə əks etdirməlidir.

## Ədəbiyyat / *References*


1. Abdullah, U. Tanzimat ve Server-i Fünun Dönemi Türk Edebiyatında Eleştiri. Ankara: Hece dergisi, Eleştiri Özel Sayısı, sayı 77, 78, 79, Temmuz 2003
2. Bilge, E. İkinci Meşrutiyete Kadar Tenkit. İstanbul: Dergah Yayınları, 2012
3. Bilge, E. Servet-i Fününda Edebi Tenkit. Ankara: Kültür Bakanlığı Yayınları, 1981
4. Enginün, İ. Yeni Türk Edebiyatı Tanzimat'tan Cumhuryete (1859-1923). İstanbul: Dergah Yayınları, 2006
5. Fatih, S. Ahmet Şuayb'ın Muhasebe-i Edebiyye ve Diğer Yazıları. Türkbilig,
6. 2012/24
7. Olcay, Ö. Edebiyatımızda Eleştiri Tanzimat ve Servet-i Fünun Dönemleri. Ankara, DTCF Yayınları,1980
8. Münakaşatı Edebiyatımıza Dair, Gülşen, nr14, 1mayıs 1302
9. Mustafa Nihat, Ö. Türk Eleştirisine Bir Bakış. Ankara: Hece dergisi, Eleştiri Özel Sayısı, sayı 77, 78, 79, Temmuz 2003
10. Ramazan, K. Klasikler Tartışması. Ankara: Atatürk Kültür Merkezi, 1998
11. https://www.academia.edu/38390691/Devri_%C4%B0%C3%A7inde_Tekam%C3%BCl_i_Tenkit_Serisi_pdf,
12. https://dijitalkutuphane.mkutup.gov.tr/tr/periodicals/articlecatalog/details/51537
13. http://www.ibrahimtuzer.com/FileUpload/ks23107/File/halit_ziya_hikaye.pdf
14. http://esgici.net/021_009/Mehmet%20KAPLAN%20%20Tevfik%20Fikret.pdf.
15. https://bakustate.academia.edu/AydanX%C9%99ndan


### Критика в турецкой литературе в период сервети фунун и тензимат

**Хураман Гадимова**


**Резюме:** В статье впервые исследуются литературные жанры и закономерности новой литературы, вошедшие в турецкую литературу в XIX веке. Отмечено, что при обсуждении новых жанров критика как литературный жанр не воспринималась всерьез. Работа в области критики оставалась неполной и разрозненной. Однако, несмотря на это, критика смогла занять своё место как литературный жанр в турецкой литературе этого периода.

В литературных кругах критика обсуждалась как «новое литературное течение» – движение. В современной литературе критика также рассматривалась и обсуждалась в многомерном ключе, включая такие аспекты, как время, пространство, эволюция, подражание, эстетика и литературное произведение. Рекайзаде М. Акрам и Муаллим Наджи, Ахмет Митхад Эфенди – известные критики этого периода.

Серваты Фунун – это период вестернизации турецкой литературы, когда различные литературные жанры были опробованы и включены в турецкую литературу. Понимание западной литературы, начавшееся с периода Танзимата, привело к появлению технически успешных произведений в эпоху Серваты Фунуна. В этот период также получила дальнейшее развитие литературная критика.


**Ключевые слова:** литература Танзимата, литературная критика, вестернизация, Османская империя XIX века, литературные движения.